# “ATASIĞORTA”

## Açıq Səhmdar Cəmiyyəti

**31 Dekabr 2024-cü il tarixində**

**bitən il üzrə**

## MALİYYƏ HESABATLARI
## VƏ
## MÜSTƏQİL AUDİTORUN RƏYİ

**Mündəricat** **Səhifə**


| | |
|---|---|
| **Maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı rəhbərliyin məsuliyyətinin bəyanı** | **1** |
| **Müstəqil Auditorun Rəyi** | **2-3** |
| **MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT** | **4** |
| **MƏCMU GƏLİR HAQQINDA HESABAT** | **5** |
| **KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT** | **6** |
| **PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT** | **7** |
| **MALİYYƏ HESABATLARI ÜZRƏ QEYDLƏR** | **8-36** |

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**
**31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**

Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatında göstərilmiş müstəqil auditorun vəzifələri haqqında müddəalarla birgə oxunmalıdır və "Atasığorta" ASC-nin (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditor arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Cəmiyyətin 31 Dekabr 2024-cü il tarixində bitən il üzrə maliyyə vəziyyətini, fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə rəhbərlik məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və təxminlərin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə

maliyyə hesabatlarının hazırlanmasının tələblərinə riayət olunması və;

- Əgər yaxın gələcəkdə, Cəmiyyətin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Cəmiyyətin daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Cəmiyyətin fəaliyyət göstərdiyi ölkədə qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 Dekabr 2024-cü il tarixində bitən il üzrə maliyyə hesabatları Cəmiyyətin rəhbərliyi tərəfindən 19 Mart 2025-ci ildə təsdiq edilmişdir.

Əliyev Seymur Əli oğlu
*İdarə Heyətinin sədri*

AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ
AtaSığorta
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Allahverdiyeva Kamalə Zaman qızı
*Maliyyə Departamentinin direktoru*

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"ATASIĞORTA" ASC-nin təsisçisinə:**

**Rəy**

Biz "Atasığorta" ASC-in 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, maliyyə nəticələri haqqında hesabatdan, xalis aktivlərdə (kapitalda) dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, qoşma maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsinin" (IESBA) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir, rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi üzrə məlumat əldə edirik;
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk;
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər;
- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

„NZA Audit" MMC

19 Mart 2025-ci il
Azərbaycan Respublikası, Bakı şəhəri.

AZƏRBAYCAN RESPUBLİKASI «NZA AUDİT» LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC

**Ünvan:**
Azərbaycan, Bakı ş., Nərimanov r.,
Möhsün Sənani küçəsi 153,
M2, mənzil 2. AZ1007.

Mob.: (+99451) 250 72 29
Email: office@nza-audit.az
Website: www.nza-audit.az

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

*Azərbaycan Manatı ilə*

| | Qeyd | 31 dekabr 2024-cü il tarixinə | 31 dekabr 2023-cü il tarixinə |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Qısamüddətli aktivlər** | | | |
| Ehtiyatlar | 13 | 9,461 | 8,931 |
| Debitor borcları | 14 | 878,692 | 766,479 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 16 | 1,946,942 | 3,009,847 |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | 12 | 830,129 | 1,031,317 |
| Sair qısamüddətli aktivlər | 15 | 44,336 | 1,641 |
| **Cəmi qısamüddətli aktivlər** | | **3,709,560** | **4,818,215** |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 8 | 473,662 | 546,586 |
| İnvestisiya mülkiyyəti | 8 | 2,560,000 | 2,950,000 |
| Qeyri-maddi aktivlər | 9 | 415,046 | 415,046 |
| Uzunmüddətli maliyyə aktivləri | 11 | 8,157,700 | 6,673,100 |
| Sair uzunmüddətli aktivlər | 10 | 400,000 | 400,000 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **12,006,408** | **10,984,732** |
| **Cəmi aktivlər** | | **15,715,968** | **15,802,947** |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 19 | 15,950,000 | 15,950,000 |
| Əlavə kapital | | 478,895 | 895 |
| Yenidənqiymətləndirmə artımı | | 700,000 | 1,090,000 |
| Yığılmış zərər | | (8,253,927) | (7,876,525) |
| **Cəmi kapital** | | **8,874,968** | **9,164,370** |
| **Öhdəliklər** | | | |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Kreditor borcları | 18 | 214,568 | 212,065 |
| Sair öhdəliklər | | 527 | 1,427 |
| Alınmış avanslar | | 63,920 | 91,025 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **279,015** | **304,517** |
| ***Uzunmüddətli öhdəliklər*** | | | |
| Sığorta ehtiyatları | 17 | 6,065,192 | 5,908,750 |
| Kreditor borcları | 17 | 362,755 | 340,850 |
| Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər | 17 | 134,038 | 84,460 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **6,561,985** | **6,334,060** |
| **Cəmi öhdəliklər** | | **6,841,000** | **6,638,577** |
| **Cəmi kapital və öhdəliklər** | | **15,715,968** | **15,802,947** |

Əliyev Seymur Əli oğlu
*İdarə Heyətinin sədri*

Allahverdiyeva Kəmalə Zaman qızı
*Maliyyə Departamentinin direktoru*

## MƏCMU GƏLİR HAQQINDA HESABAT

*Azərbaycan Manatı ilə*

| | Qeyd | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əsas əməliyyat gəlirləri** | | **10,625,208** | **10,009,674** |
| Birbaşa sığorta üzrə sığorta haqları | 20 | 10,390,415 | 9,635,793 |
| Təkrar sığorta üzrə təkrarsığorta haqları | 20 | - | - |
| Sığorta ödənişlərində təkrarsığortaçıların payı | 20 | 25,222 | 11,582 |
| Təkrarsığortaya verilmiş müqavilələr üzrə komisyon muzdlar | 20 | 209,571 | 362,299 |
| Xalis sığorta ehtiyatlarının dəyişməsi | 20 | (357,630) | (1,230,693) |
| İnvestisiya gəlirləri | 20 | 678,183 | 973,748 |
| Subroqasiya gəlirləri | 20 | 202,816 | 179,647 |
| Sair gəlirlər | 20 | 1,325,742 | 1,115,255 |
| **Cəmi gəlirlər** | | **12,474,319** | **11,047,631** |
| **Əsas əməliyyat xərcləri** | | **(6,482,962)** | **(6,157,532)** |
| Verilmiş sığorta ödənişləri və sığorta məbləğləri | 21 | (4,312,276) | (3,210,549) |
| Qaytarılan sığorta haqları | 21 | (162,364) | (170,059) |
| Tənzimləmə xərcləri | 21 | (13,507) | (15,499) |
| Təkrarsığortaya verilmiş sığorta haqları | 21 | (1,920,480) | (2,682,322) |
| Qarşısıalınma tədbirləri fondunda ayırmalar | 21 | (72,095) | (79,103) |
| Sığorta fəaliyyəti üzrə sair xərclər | 21 | (2,240) | - |
| İşlərin aparılması xərcləri | 21 | (6,301,725) | (5,787,138) |
| Sair xərclər | 21 | (67,034) | (49,947) |
| **Cəmi xərclər** | | **(12,851,721)** | **(11,994,617)** |
| **Vergitutmadan əvvəlki zərər** | | **(377,402)** | **(946,986)** |
| Mənfəət vergisi xərci | 23 | - | - |
| **Hesabat ili üzrə xalis zərər** | | **(377,402)** | **(946,986)** |

Əliyev Seymur Əli oğlu
*İdarə Heyətinin sədri*

Allahverdiyeva Kəmalə Zaman qızı
*Maliyyə Departamentinin direktoru*

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*Azərbaycan Manatı ilə*

| | Qeyd | Ödənilmiş nizamnamə kapitalı | Əlavə kapital | Yenidən qiymətləndirmə artımı | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **31 Dekabr 2022-ci il tarixinə qalıq** | | **14,600,000** | **1,350,895** | **-** | **(6,929,539)** | **9,021,356** |
| Hesabat dövründə xails zərər | | - | - | - | (946,986) | (946,986) |
| Mülkiyyətçilərin arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | - | (1,350,000) | - | - | (1,350,000) |
| Yenidənqiymətləndirmə artımı | | - | - | 1,090,000 | - | 1,090,000 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | 1,350,000 | - | - | - | 1,350,000 |
| **31 Dekabr 2023-cü il tarixinə qalıq** | | **15,950,000** | **895** | **1,090,000** | **(7,876,525)** | **9,164,370** |
| Hesabat dövründə xails zərər | | - | - | - | (377,402) | (377,402) |
| Mülkiyyətçilərin arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | - | - | - | - | - |
| Yenidənqiymətləndirmə üzrə azalma | | - | - | (390,000) | - | (390,000) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | - | 478,000 | - | - | 478,000 |
| **31 Dekabr 2024-cü il tarixinə qalıq** | | **15,950,000** | **478,895** | **700,000** | **(8,253,927)** | **8,874,968** |

Əliyev Seymur Əli oğlu
*İdarə Heyətinin sədri*

Allahverdiyeva Kəmalə Zaman qızı
*Maliyyə Departamentinin direktoru*

**"ATASIĞORTA" ASC**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

*Azərbaycan Manatı ilə*

| | Qeyd | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Vergidən əvvəlki zərər | | (377,402) | (946,986) |
| *Düzəlişlər:* | | | |
| Əmlak, tikili və avadanlıqların köhnəlməsi | | 78,353 | - |
| Qeyri-maddi aktivlərin amortizasiyası | | - | - |
| Əmlak, tikili və avadanlıqların silinməsi üzrə (mənfəət)/zərər | | (10,922) | 7,465 |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | **(309,971)** | **(939,521)** |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | | |
| Ehtiyatlarda xalis artım | | (530) | (5,735) |
| Debitor borclarda xalis (artım)/azalma | | (112,213) | 144,233 |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payında xalis azalma/(artım) | | 201,188 | (300,520) |
| Sair qısamüddətli aktivlərdə xalis (artım)/azalma | | (42,695) | 113,872 |
| Kreditor borclarında xalis artım | | 24,408 | 40,252 |
| Sair öhdəliklərdə xalis azalma | | (900) | (15,664) |
| Alınmış avanslarda xalis azalma | | (27,105) | (65,829) |
| Sığorta ehtiyatlarında xalis artım | | 156,442 | 1,531,213 |
| Təkrarsığorta əməliyyatları üzrə öhdəliklərdə artım | | 49,578 | 42,772 |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | **(61,798)** | **545,073** |
| Ödənilmiş mənfəət vergisi | | - | - |
| Ödənilmiş faizlər | | - | - |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(61,798)** | **545,073** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Əmlak, tikili və avadanlıqların alınması | | (22,507) | (84,614) |
| Əmlak, tikili və avadanlıqların satışından mədaxil | | 28,000 | 54,502 |
| Qeyri-maddi aktivlərin alınması | | - | - |
| **İnvestisiya fəaliyyətlərinə yönəlmiş xalis pul vəsaitləri** | | **5,493** | **(30,112)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Uzunmüddətli maliyyə aktivləri (investisiyalar) üzrə qoyuluşlar | | (1,484,600) | (2,447,900) |
| Təsisçi tərəfindən əlavə kapital qoyuluşu | | 478,000 | - |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **(1,006,600)** | **(2,447,900)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım** | | **(1,062,905)** | **(1,932,939)** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | | **3,009,847** | **4,942,786** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | | **1,946,942** | **3,009,847** |

Əliyev Seymur Əli oğlu
*İdarə Heyətinin sədri*

Allahverdiyeva Kəmalə Zaman qızı
*Maliyyə Departamentinin direktoru*

## 1. Giriş

Hazırki maliyyə hesabatları 31 dekabr 2024-cü ildə bitən il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq tərtib edilmişdir. Cəmiyyət Azərbaycan Respublikasında təsis edilmiş və bu ölkədə fəaliyyət göstərir. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmışdır.

## CƏMİYYƏT HAQQINDA MƏLUMAT

"AtaSığorta" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra "Cəmiyyət") 21 iyul 2004-cü il tarixdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına (1104-A1-407 N-li "Dövlət qeydiyyatı haqqında şəhadətnamə") alınmışdır.

Cəmiyyətə sığorta fəaliyyəti göstərmək üçün Maliyyə Nazirliyi tərəfindən qeydiyyat nömrəsi 316 olmaqla 10 noyabr 2009-cu il tarixli 000300 nömrəli müddətsiz lisenziya verilmişdir.

Cəmiyyət tərəfindən aparılan sığorta əməliyyatlarına əmlakın, nəqliyyat vasitələrinin, yüklərin, məsuliyyətin, maliyyə risklərinin sığortası, tibbi sığorta və digər sığorta xidmətləri və təkrarsığorta daxildir və Cəmiyyətin fəaliyyəti təkcə bunlarla məhdudlaşmır.

24 iyun 2011-ci il tarixli 165-IVQ saylı "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası qanunu qəbul olunmuş, 17 oktyabr 2011-ci il tarixdə qüvvəyə minmişdir. 29 noyabr 2011-ci il tarixdə "İcbari Sığorta Bürosu" hüquqi şəxslərin ittifaqinin nizamnaməsi dövlət qeydiyyatından keçmişdir. İcbari Sığorta Bürosunun 19 dekabr 2011-ci il tarixli 04 saylı çıxarışına əsasən Cəmiyyətə aşağıdakı icbari sığorta növləri üzrə sığorta fəaliyyəti göstərilməsi üçün icazə verilmişdir:

- Daşınmaz əmlakın icbari sığortası;
- Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası;
- Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası

31 dekabr 2024-cü il tarixə Cəmiyyətin strukturuna 15 filial, 16 nümayəndəlik daxildir.

31 dekabr 2024-cü və 31 dekabr 2023-cü il tarixlərinə Cəmiyyətin nizamnamə kapitalında səhmdarın payı aşağıdakı kimi olmuşdur:

| | 31 Dekabr 2024-cü il | | 31 Dekabr 2023-cü il | |
|---|---|---|---|---|
| **Təsisçi** | **Payın məbləği** | **Payın faizi** | **Payın məbləği** | **Payın faizi** |
| ATAHOLDİNG MMC | 15,950,000 | 100.0% | 15,950,000 | 100.0% |
| **CƏMİ** | **15,950,000** | **100.0%** | **15,950,000** | **100.0%** |

Cəmiyyətin hüquqi ünvanı:

Bakı şəhəri, Ş.Bədəlbəyli küçəsi 102. Cəmiyyətin faktiki fəaliyyət göstərdiyi ünvan: Bakı şəhəri, AZ1007 Azadlıq pr. 124.

## 2. ƏMƏLİYYAT MÜHİTİ

Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar maliyyə xidmətləri bazarının da genişlənməsi və inkişafına müsbət təsir göstərir. Müvafiq olaraq yerli qanunvericilik aktları da (vergi, gömrük, sığorta və s.) müxtəlif əlavə və dəyişikliklərə məruz qalır. 25 dekabr 2007-ci il tarixində "Sığorta fəaliyyəti haqqında" yeni qanun qəbul olunmuş və həmin qanunun qüvvəyə minməsi ilə əlaqədar sığorta sahəsində münasibətləri tənzimləyən bir sıra normativ sənədlər (qaydalar) Maliyyə Nazirliyi tərəfindən təsdiq olunmuşdur.

## 3. TƏQDİMATIN ƏSASI

**Təqdimatın əsası**

Cəmiyyət mühasibat yazılışlarını Azərbaycanın sığorta və mühasibat uçotu qaydaları əsasında aparır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının sığorta və mühasibat qaydaları əsasında hazırlanmış və zəruri düzəlişlər edilmişdir.

Maliyyə hesabatlarının hazırlanmasında hesabat tarixinə aktiv və öhdəliklərin qeyd olunmuş məbləğlərinə və hesabat dövründə gəlir və xərclərin qeydə alınmış məbləğlərinə təsir edə biləcək hesablamalardan istifadə olunur.

**Əməliyyat valyutası**

Təqdim olunan maliyyə hesabatlarında əməliyyat valyutası Azərbaycan Manatıdır ("AZN").

## 4. UÇOT SİYASƏTLƏRİ

Aşağıdakı uçot siyasətləri əsaslı surətdə əhəmiyyətli olan maddələrə müvafiq olaraq müəssisənin maliyyə hesabatlarında tətbiq edilmişdir.

Uçot metodu

Maliyyə hesabatları ilkin dəyər konsepsiyası əsasında hazırlanmışdır.

Əsas əməliyyat gəliri

Əsas əməliyyat gəliri hesablama metodu əsasında tanınır və tanınma alıcı ilə müqavilənin bağlandığı andan başlanır.

Digər gəlirlər

Digər gəlirlər aidiyyatı əməliyyatlar başa çatdıqda gəlirin kreditinə yazılır. Əməliyyat xərcləri və digər xərclər adətən mallar alındıqda və ya xidmətlər yerinə yetirildikdə hesablama metodu ilə qeyd olunur.

Banklarda yerləşdirilmiş əmanətlər

Banklarda yerləşdirilmiş əmanətlər qarşı tərəfə pulun birbaşa verilməsindən yaranır. Banklarda yerləşdirilmiş əmanətlər pul vəsaitinin qarşı tərəfə ödəmə şəklində verildikdə qeydə alınır.

Torpaq, tikili, avadanlıq və amortizasiya

Aktiv kimi tanına bilən torpaq, tikili və avadanlıq obyekti əldə olunan zaman ilkin dəyəri əsasında tanınır. "İlkin dəyər" ödənilmiş pul və ya pul ekvivalentlərinin məbləğinə və ya ödənilmiş hər hansı digər əvəzləşdirmənin ədalətli dəyərinə bərabərdir. Əsas vəsaitlər yığılmış köhnəlmə və hər hansı qiymətdən düşmə zərəri çıxılmaqla ilkin dəyərlə tanınır ("ilkin dəyər modeli").

Torpaq istisna olmaqla əsas vəsaitlərin köhnəlməsi "azalan qalıq metodu" əsasında aktivlərin illik köhnəlmə dərəcələrini istifadə etməklə hesablanır:

| | |
|---|---|
| Tikililər | 7% |
| Maşın və avadanlıqlar | 15% |
| Nəqliyyat vasitələri | 15% |
| Digər aktivlər | 10% |

Hər bir maliyyə ilinin sonunda aktivlərin qiymətdən düşmə zərərini müəyyən etmək üçün ilkin dəyərə əsaslanan balans dəyəri ilə bərpa oluna bilən dəyəri müqayisə edilir. Əgər balans dəyəri bərpa oluna bilən dəyərindən əhəmiyyətli dərəcədə artıq olarsa, bu iki dəyər arasındakı fərq mənfəət və zərər haqqında hesabatda xərc kimi göstərilməklə balans dəyəri bərpa oluna bilən dəyərə qədər silinir.

***Qeyri-maddi aktivlər və amortizasiya***

Qeyri-maddi aktiv aşağıdakı meyarlara cavab verdikdə tanınır:

- Bu aktiv fiziki formaya malik olmayan qeyri-monetar aktiv olmalıdır;
- Ayrıca tanına bilinməlidir;
- Müəssisə aktiv üzərində nəzarət imkanına malik olmalıdır;
- Gələcəkdə iqtisadi səmərələr yaratmalıdır;
- Gələcəkdə iqtisadi səmərələrin müəssisəyə daxilolacağı ehtimalı olmalıdır;
- Aktivin dəyəri etibarlı qiymətləndirilməlidir.

Bu meyarlardan hər-hansı yerinə yetirilmədikdə xərclər qeyri-maddi aktiv kimi deyil, onların yarandığı dövrün xərcləri kimi tanınır. Qeyri-maddi aktivlərin tanınması onların ilkin dəyəri əsasında aparılır. Cəmiyyət ilkin tanınmadan sonra qeyri-maddi aktivi amortizasiya çıxılmaqla ilkin dəyər ilə uçota alır ("ilkin dəyər modeli"). Qeyd etmək lazımdır ki, faydalı istifadə müddətinə malik qeyri-maddi aktivlər amortizasiya oluna bilərlər, faydalı istifadə müddətləri qeyri-müəyyən olan qeyri-maddi aktivlər isə amortizasiya oluna bilməzlər. Cəmiyyət faydalı istifadə müddətinə malik qeyri-maddi aktivlərə amortizasiyanı "düz xətt metodu" ilə hesablayır. Bundan əlavə, balans dəyəri təyin edilmiş ədalətli dəyərlə müqayisə edilməli və ədalətli dəyər balans dəyərindən əhəmiyyətli dərəcədə aşağı olduqda, balans dəyərindən qiymətdən düşmə zərəri çıxılmalıdır. Aktiv qiymətdən düşmüş olduqda, ona amortizasiyanın standart qaydalarının tətbiq edilməsi davam etdirilməlidir.

***Qiymətləndirilmiş öhdəliklər***

Gələcəkdə yaranacaq öhdəlik ehtimal edildikdə, bu ehtimal yarandığı andan bəri qeyd edilmiş öhdəlik qiymətləndirilmiş öhdəlik kimi tanınır.

***Sığorta əməliyyatları***

**Sığorta haqqı** – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir.

**Baza sığorta haqqı** – sığorta müqaviləsi üzrə hesablanmış sığorta haqqından həmin müqavilənin bağlanması üzrə göstərilən vasitəçilik xidməti üçün komisyon muzdu (hesablanmış sığorta haqqının 15%-dən çox olmamaqla) çıxıldıqdan sonra qalan məbləğdir.

**Qazanılmamış sığorta haqqı** – sığorta haqqının sığorta təminatının qüvvədə olma müddətinin hesablama tarixindən sonrakı dövrünə aid olan hissəsidir.

**Qazanılmış məcmu sığorta haqları** – hesabat dövrü ərzində bağlanmış sığorta (təkrarsığorta) müqavilələri üzrə hesablanmış məcmu sığorta haqlarının və hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatınınbaza hissəsinin cəmindən həmin dövrün sonuna qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsini çıxdıqdan sonra qalan məbləğdir.

**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyasıdır.

*Sığorta ehtiyatları*

**Qazanılmamış sığorta haqları ehtiyatı** - Sığorta mükafatının qazanılmayan hissəsi üçün ehtiyat balans hesabatı tarixinə qüvvədə olan və müddəti bitməyən qaydaların şərtləri ilə əlaqəli dövrdə qəbul olunmuş və vaxtaşırı hesablanan sığorta mükafatlarının bir hissəsini ifadə edir.

**Zərərlər ehtiyatı** - yekun zərərlər üçün hesablamaları əks etdirir. Zərərlər ehtiyatına bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı (BTZE) və baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatı (BVBZE) daxildir. İddialarla bağlı xərclərin tənzimlənməsi üzrə hesablamalar hər iki ehtiyata (BTZE) və (BVBZE) daxil edilir. BTZE sığortaçıya bildirilmiş, lakin heasabat tarixinə qədər tənzimlənməmiş hər bir tələb üzrə hesablanır. BVBZE verilmiş sığorta ödənişlərinə əsasən hesabat tarixinə üçbucaq metodu ilə hesablanmış BVBZE, hesabat tarixinə hesablanmış BTZE-nin 25%-i və hesabat tarixindən əvvəlki 4 rüb ərzində qazanılmış məcmu sığorta haqlarının 2.5%-nin böyük olanı əsasında hesablanır. Yekun düzəlişlər yarandıqları dövr üzrə mənfəət və zərər haqqında hesabatda əks olunur.

*Təkrarsığorta*

Təkrarsığorta sığortaçının sığorta müqaviləsi üzrə sığortaladığı və ya təkrarsığortaladığı risklərin bütövlükdə, yaxud bir hissəsinin sığorta qanunvericiliyində nəzərdə tutulmuş qaydada təkrarsığortaçı ilə bölüşdürülməsi və ya təkrarsığortaçıya ötürülməsidir. Cəmiyyət biznesin normal gedişində təkrarsığorta üzrə riskləri digər şirkətə verir. Lakin risk və təkrarsığortanın digər tərəfə verildiyi təkrarsığorta müqavilələri Cəmiyyəti sığortalanan şəxslər qarşısındakı öhdəliklərindən azad etmir. Aktivlərin təkrarsığortasına ödənilmiş iddialar üçün təkrarsığorta şirkətlərindən debitor borcları, o cümlədən, zərərləri tənzimləyən iddialar və Cəmiyyətə verilən sığorta mükafatları daxildir. Təkrarsığorta üzrə kreditor borclar təkrarsığortaçıya təkrarsığorta ödənişlərinin köçürülməsi üzrə Cəmiyyətin öhdəliyidir və Cəmiyyətin təkrarsığorta halları ilə bağlı iddialarındakı payıdır. Təkrarsığortalar tərəfindən ödəniləcək vəsaitlər təkrarsığorta siyasəti ilə bağlı iddia öhdəliyinə münasib şəkildə hesablanır. Sığorta riskini digər tərəfə verməyən təkrarsığorta müqavilələri birbaşa balansda əks edilir və digər alınacaq vəsaitləri və ya ödəniləcək vəsaitləri maddəsinə daxil edilir. Depozit aktivlər və ya öhdəliklər ödənilmiş və ya alınmış məbləğdən dəqiq müəyyənləşdirilmiş sığorta haqları və ya təkrarsığortalanan şəxs tərəfindən tutulmalı haqlar çıxılmaqla tanınır.

*Xalis əldə etmə gəlirləri*

Cəmiyyət qəbul edilmiş yeni sığortalara görə komissiyalar ödəyir və təkrarsığortaçıya verilən riski köçürülmüş sığorta mükafatlarına görə komissiyalar alır. Bu növ, komissiya mənfəət və zərər haqqında hesabatda sığorta fəaliyyəti bölməsində qeydə alınır.

*Sığorta fəaliyyəti ilə bağlı olmayan xidmətlər*

Sığorta ilə bağlı olmayan xidmətlər birbaşa balansda hesabat edilərək riskin köçürülmədiyi əməliyyatları əks etdirir. Aktiv və ya öhdəlik geri ödənilmiş məbləğlər və tutulmuş hər hansı komissiyalar çıxılmaqla alınmış məbləğlər ilə tanınır.

*Xarici valyuta əməliyyatı*

Cəmiyyətin əməliyyat valyutası manatdır. Xarici valyutada olan monetar maddələr (kassa qalığı, hesab qalığı, debitor borclar, kreditor borclar, öhdəliklər və s.) Cəmiyyətin balans hesabatının bağlandığı tarixə (31 dekabr) olan valyuta məzənnəsindən istifadə etməklə hesabat verdiyi valyutaya dəyişilir. Xarici valyutada olan maya dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr tanınmış maya dəyəri nəticəsində ilkin əməliyyatın aparıldığı zaman mövcud olan valyuta məzənnəsi istifadə olmaqla çevrilir. Xarici valyutada olan ədalətli dəyər ilə qiymətləndirilən (və ya yenidən qiymətləndirilmiş) qeyri-monetar maddələr ədalətli dəyər müəyyən edilən (və ya yenidən qiymətləndirilmə aparılan) günə olan valyuta məzənnəsi istifadə olunmaqla çevrilir.

Xarici valyuta ilə ifadə olunmuş monetar maddələr ilə əlaqədar yaranan məzənnə fərqləri mənfəət və zərər haqqında hesabat vasitəsilə mühasibat uçotuna daxil edilir. Qeyri-monetar maddələrlə bağlı digər mənfəət və ya zərərin mənfəət və zərər haqqında hesabat vasitəsilə tanındığı hallarda yaranan məzənnə fərqləri də həmçinin bu hesabatlara daxil edilir. Mənfəət və ya zərərlər kapital vasitəsilə tanındığı hallarda müvafiq olaraq, məzənnə fərqləri də həmçinin kapital vasitəsilə tanınır. Xarici valyuta balansında istifadə olunan əsas dərərəcə Azərbaycan Respublikası Mərkəzi Bankının ("ARMB") rəsmi məzənnələri əsasında aşağıda göstərilib:

| | *31 dekabr 2024-cü il* | *31 dekabr 2023-cü il* |
|---|---|---|
| 1 ABŞ dolları | 1.7000 AZN | 1.7000 AZN |
| 1 Avro | 1.7724 AZN | 1.8766 AZN |
| 1 Rusiya rublu | 0.0163 AZN | 0.0188 AZN |

*Əvəzləşdirmə*

Maliyyə aktivləri və öhdəlikləri yalnız o zaman əvəzləşdirilir ki, qarşılıqlı əvəzləşdirmənin həyata keçirilməsi üçün qanuni hüquq mövcud olmalı, iki alətin qarşılıqlı əvəzləşdirilməsi niyyəti və hər iki müqavilənin eyni zamanda reallaşdırılması niyyəti olsun.

*İşçi heyəti ilə bağlı xərclər və aidiyyatı ayırmalar*

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Cəmiyyət işçilərin əmək haqlarından məcburi sosial sığorta haqları tutur və onları Dövlət Sosial Müdafiə Fonduna köçürür. Bundan əlavə bu tip təqaüd sistemi işəgötürən tərəfindən işçilərin əmək haqı fondunun müəyyən faizi kimi Dövlət Sosial Müdafiə Fonduna məcburi sosial sığorta haqları ayırmalarını nəzərdə tutur. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Dövlət Sosial Müdafiə Fondu tərəfindən yerinə yetirilir. Cəmiyyət Dövlət Sosial Müdafiə Fondunun qaydalarından əlavə ümumi əmək haqqı ödənişlərinin faizi kimi hesablanmış işçilər tərəfindən cari yardımları tələb edən pensiya ilə bağlı hər hansı fərdi qaydalara malik deyildir. Bundan başqa, Cəmiyyətdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

*Aktivlərin qiymətdən düşməsi*

Faydalı istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üçün testləşdirmə aparılır. Amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şəraitin dəyişməsi balans dəyərinin bu aktivlərin əvəzinin ödənilmə dəyəri olmasını göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir. Qiymətdən düşmə zərəri aktivin balans dəyərinin onun əvəzinin ödənilmə dəyərindən artıq olan məbləğində tanınır. Əvəzinin ödənilməsi dəyəri aşağıdakı iki meyardan daha böyük olan məbləğlərdən biridir:

(a) Aktivin satışı üzrə xərclər çıxılmaqla ədalətli;

(b) İstifadə edilmə dəyəri.

Aktivlərin qiymətdən düşməsi məqsədləri üçün aktivlər pul axınlarını eynilaşdirən qruplaşdırma qaydasında ən kiçik qruplara bölünür.

### *5.1. İnvestisiyalar*

Cəmiyyət özünün investisiyalarını aşağıdakı şəkildə təsnifləşdirir:

– Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən aktivləri;

– Borc vəsaitləri və debitor borclar;

– İnvesitisiyalar;

– Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri.

Təsnifləşdirmə investisiyaların şansı məqsədlə alınmasından asılıdır. Rəhbərlik investisiyaların təsnifləşdirilməsinin onların ilkin tanınması zamanı müəyyən edir və hər bir hesabat tarixinə onları yenidən nəzərdən keçirir.

*(a) Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivlər*

Bu kateqoriya iki alt kateqoriyaya bölünür: ticarət üçün nəzərdə tutulmuş maliyyə aktivləri ilə ilkin tanınmış ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri. Maliyyə aktivləri bu kateqoriyaya o zaman aid ediliri ki, onlar yaxın gələcəkdə satış üçün nəzərdə tutulmuşdur və onlar rəhbərlik tərəfindən belə ifadə edilmişdir. Törəmə maliyyə alətləri deyildilər. Əgər bu aktivlər satış üçün nəzərdə tutulmuşdursa və ya onların satılması balans hesabatı tarixindən bir ildən artıq olmayan müddətdə nəzərdə tutulmuşdursa, bu kateqoriyanın aktivləri qısamüddətli aktivlər kimi təsnifləşdirilirlər.

*(b) Borc vəsaitləri və debitor borcları*

Borc vəsaitləri və debitor bərcları təsbit edilmiş və ya müəyyən edilə bilən ödəmə müddəti olan və aktiv bazarda qiyməti təyin edilməyən (katirovka olunmayan) qeyri-törəmə maliyyə aktivləridir. Onlar o vaxt yaranır ki, Cəmiyyət debitor borclarının satılması niyyəti olmadan pul vəsaitlərini, malları və xidmətləri birbaşa debitora təqdim edir. Belə borc vəsaitləri və debitor borcları dövriyyə aktivləri kimi təsnifləşdirilirlər və qısamüddətli aktivlərə aid edilirlər (əgər ödəmə müddəti mühasibat balansının tərtib edilmə tarixindən bir ilədək müddətdən artıq deyildirsə). Borc vəsaitləri və debitor borcları mühasibat balansında «Debitor borcları» maddəsinin tərkibində əks etdirilmişlər.

*(c) Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar*

Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar təsbit edilmiş ödəmə müddəti olan elə qeyri-törəmə müddəti ola elə qeyri-törəmə maliyyə aktivləridir ki, onlarla münasibətdə ödəniş müddətinin çatmasına qədər Cəmiyyətin onları saxlamağa qəti niyyəti və imkanı vardır. Hesbat dövründə Cəmiyyətin bu kateqoriya üzrə heç bir investisiya olmamışdır.

*(d) Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri*

Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri bu kateqoriyada nəzərdə tutulmamış və ya digər kateqoriyalarda təsnifləşdirilməmiş qeyri-törəmə maliyyə alətləridir. Əgər rəhbərliyin bu aktivləri mühasibat balansının tətbiq edilmə tarixindən bir ilədək müddətə satmaq niyyəti yoxdursa, onlar qeyri-dövriyyə aktivlərinə aid edilənlər və uzunmüddətli aktivlərin tərkibində əks itirilirlər.

***Ehtiyatlar***

Ehtiyatlar faktiki maya dəyəri ilə əks etdirilir. Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə (FİFO metodu) hesablanır. Maya dəyərinə material xərcləri, istehsal işçilərinin əmək haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxil edilir.Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axınının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçirilmiş zərərlər daxil edilir.

***Alıcılar və sifarişçilərin debitor borcları***

Alıcılar və sifarişçilərlə hesablaşmalar ilkin olaraq ədalətli dəyər üzrə əks etdirilir. Sonradan isə qiymətdən düşmə ehtiyatlarının (rezervlərinin) yaradılması metodu ilə amortizasiya olunmuş dəyər ilə uçota alınır. Alıcılar və sifarişçilərin debitor borcları üzrə qiymətdən düşmə ehtiyatları (rezervi) o halda yaradılılır ki, elə obyektiv sübutlar mövcuddur ki, Cəmiyyət tərəfindən ilkin maliyyələşmə nəticəsində yaranmış bütün debitorborclarının ödənilməsi mümkünsüzdür. Ehtiyatların (rezervin) məbləği aktivin balans dəyəri ilə pul vəsaitləri axınının effektiv faiz dərəcəsinə nəzərə alınanın fərz edilən diskontlaşdırılmış dəyəri arasındakı fərqdir. Ehtiyatların (rezervlərin) yaradılması və ya dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nağd məbləğinə çevrilə bilən və dəyəri cüzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nağd pul vəsaitləri, yolda olan pul köçürülmələri, bank hesabalaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir. Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzrə əks etdirilir.

**Səhmdar kapital**

Adi səhmlər kapital kimi təsnifləşdirilir.

Yeni səhmlərin buraxılması ilə əlaqədar olan xərclər tərkibində əks etdirilir.

**Kreditlər və borclar**

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır.

Konvertasiya olunan istiqrazların öhdəliklərə aid olan hissəsinin ədalətli dəyəri konvertasiya olunmayan istiqrazlara ekvivalent bazar faiz dərəcəsi tətbiq edilməklə müəyyən olunur. Bu məbləğ konvertasiyada ləğv olunma müddətinə və istiqrazların ödəmə müddətinin çatması müddətinə qədər amortizasiya olunan öhdəliyin dəyəri kimi əks etdirilir. Alınmış qalan vəsaitlər konvertasiya opsion kimi mənfəət vergisi effekt çıxılmaqla kapitala əlavə edilir.

Kreditlər və borclar, Cəmiyyət tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətindən mühasibat balansının tərtib edilmə müddətindən ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüququ olması halları istisna olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləndirilir.

**Mənfəət vergisi**

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirəsalınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqa dövrdə bilavəsitə kapital

hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi üzrə ehtiyat (rezerv) öhdəliklər metodu istifadə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Lakin, təxirə salınmış mənfəət vergisi, aktivlərin və ya öhdəliklərin ilkin tanınması zamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfəət vergisi uçotda əks etdirilmir (əgər, sövdələşmənin həyata keçirildiyi anda nə mühasibat mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə təsir etməyən biznesin birləşdirilməsi ilə əlaqədar deyildirsə). Təxirə salınmış mənfəət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qevvədə olan Azərbaycan Respublikasında Vergi Məcəlləsində müəyyən edilmiş vergi dərəcələrinə müvafiq olaraq hesablanır.

Təxirə salınmış vergi aktivləri o zaman tanınır ki, gələcəkdə zaman fərqləri məbləğində azaldıla biləcək vergiyə cəlb ediləsi mənfəət əldə edilməsi ehtimalı vardır.

**Qarşıdakı xərclər və ödənişlər üzrə ehtiyatlar (rezervlər)**

Ətraf mühitin bərpa olunmasına, restrukturizasiyaya və məhkəmə çəkişmələrinə ehtiyatlar (rezervrlər) o zaman yaradılır ki:

– Cəmiyyət keçmiş dövrlərdə baş vermiş hadisələr nəticəsində hər hüquqi öhdəliklər daşıyır və ya könüllü surətdə öz üzərinə ənənəvi öhdəliklər qəbul etmişdir;

– Ehtimallar vardır ki, bu öhdəliklərin salınana salınması üçün pul vəsaitlərinin axını labüddür;

– Bu öhdəliklərin məbləği etibarlı surətdə hesablana bilir.

Restrukturizasiya xərcləri üzrə ehtiyatlara icarə müqavilələrinin vaxtından əvvəl ləğv edilməsinə görə cərimə sanksiyaları və işçilərə ödənilən işdən çıxma müavinətləri daxildir. Işçilərə ödənilən işdən çıxma müavinətları daxildir. Gələcək dövrlərin əməliyyat zərərləri üzrə ehtiyatlar yaradılmır.

**Gəlirin tanınması**

Gəlir satılmış mal, iş və xidmətlərin ədalətli dəyəri ilə (əlavə dəyər vergisi çıxılmaqla) tanınır. Satışdan gəlir aşağıdakı qaydada tanınır:

*(a) Malların topdan satışından gəlir*

Malların satışından gəlir o vaxt tanınır ki, Cəmiyyət tərəfindən mallar alıcıya çatdırılmışdır, alıcı malları qəbul etmişdir və müvafiq olan debitor borcunun alınması üçün kifayət dərəcədə ehtimal vardır.

*(b) Malların pərakəndə satışından gəlir*

Malların satışından gəlir Cəmiyyət tərəfindən alıcıya malları satması zamanı tanınır. Pərakəndə satış adətən nağd qaydada ödəniş yolu ilə aparılır. Əks etdirilmiş satışdan gəlir, sövdələşmənin həyata keçirilməsi ilə əlaqədar ödənilmiş yığımlar daxil olmaqla, satışdan gələn məcmu hasilatı əks etdirir. Belə yığımlar malların satış xərclərinə aid edilir.

*(c) Xidmətlərin göstərilməsindən gəlirlər*

Xidmətlərin göstərilməsindən gəlirlər o hesabat dövrünə aid edilir ki, bu xidmətlər göstərilmişdir və xidmət göstərilməsi üzrə konkret sövdələşmənin tələblərinin başa çatdırılmışdır.

Konkret sövdələşmənin tələblərinin başa çatdırılması dərəcəsi faktiki göstərilmiş xidmətlərin həcminin sövdələşmə üzrə göstəriləcək xidmətlərin ümumi həcmindən payı kimi qiymətləndirilir.

*(d) Faiz gəlirləri*

Faiz gəlirləri effektiv faiz dərəcəsi metodu istifadə edilməklə zaman tənasüblüyü əsasında tanınır. Debitor borcunun dəyərinin aşağı düşməsi hallarında Cəmiyyət balans dəyərini əvəzi ödənilə bilən dəyərə qədər aşağı salır. Dəyərin bu qaydada aşağı salınması, maliyyə alətlərinin effektiv faiz dərərcəsindən istifadə edilməklə, ilkin tanınma tarixinə pul vəsaitləri axınının gələcək diskontlaşdırılmış hesablamaları yolu il müəyyən edilir. Dəyəri aşağı salınmış faiz gəlirləri konkret şəraitdən asılı olaraq, pul vəsaitlərinin daxil olması və ya xərclərin ödənilməsi tanınır.

*(e) Dividend gəlirləri*

Dividend gəlirləri o zaman tanınır ki, səhmdarların mənfəət əldə etmək hüququ müəyyən olunmuşdur.

**İcarə**

Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə, əməliyyat icarəsi kimi təsnifləşdirilir. Əməliyyat icarəsi müqaviləsi üzrə ödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**Dividendlərin verilməsi**

Cəmiyyətin səhmdarlarına dividendlər maliyyə hesabatlarında öhdəlik kimi o dövrdə tanınır ki, həmin dövrdə Cəmiyyətin səhmdarları tərəfindən təsdiq edilmişdir.

2023-cü il üzrə cəmiyyət tərəfindən səhmdarlara dividendlər elan edilməmişdir.

**5. Maliyyə risklərinin faktorları**

Cəmiyyətin fəaliyyəti bir sıra maliyyə risklərinə meyillidir: bazar riski (valyuta riskləri, faiz dərəcələrinin dəyişməsinin ədalətli dəyərə təsir riski daxil olmaqla); kredit riski; likvidlik riski və faiz dərəcələrinin dəyişməsinin pul vəsaitləri axının təsiri riski. Cəmiyyət risklərin idarə olunması üzrə proqramı, maliyyə risklərinin qabaqcadan müəyyən edilə bilinməməsi amilinə cəmləşdirilmişdir (fokusuna yayılmışdır) və Cəmiyyətin fəaliyyətinin maliyyə nəticələrinə potensial əlverişsiz təsirinin minimallaşdırılmasına yönəldilmişdir. Cəmiyyət müəyyən risklərin hedcinqləşdirilməsi üçün törəmə alətlərindən istifadə edir.

*(a) Bazar riski*

(I) Valyuta riski

Cəmiyyət beynəlxalq iqtisadi əlaqələrə malikdir və ona görə xarici valyuta kurslarının (əsasən ABŞ dolları, avro, rus rublu və s.) dəyişməsindən valyuta risklərinə meyillidir. Gələcək kommersiya sövdələşmələri, tanınmış aktivlər və öhdəliklər, həmçinin xarici şirkətlərə netto-investisiyalara münasibətdə mübadilə kurslarının dəyişməsi riski mövcuddur.

(II) Qiymət riski

Cəmiyyət göstərdiyi xidmətlər üzrə qiymət riskinə mübtəla deyildir. Anoloji xidmətlər bazarında faktiki rəqabətin olmaması buna əsas verir.

*(b) Kredit riski*

Cəmiyyət əhəmiyyətli kredit risklərinə mübtəla deyildir. Törəmə alətlərlə sövdələşmələr və pul əməliyyatları yalnız yüksək ödəmə qabiliyyəti olan maliyyə insitutları ilə aparılır. Cəmiyyət tərəfindən heç bir istisnaya yol vermədən bütün maliyyə institutları üçün kredit riskini məhdudlaşdıran prosedurlar işlənmişdir.

*(c) Likvidlik riski*

Likvidlik riskini ehtiyatlkarlıqla idarə edilməsi pul vəsaitləri və dövriyyədə olan qiymətli kağızların kifayət həcminin saxlanmasını, açılmasını, açılmış kredit xətləri vasitəsilə adekvat maliyyələşmə imkanlarını və ortaya çıxa biləcək disbalans hallarında operativ idarəetmə imkanlarını nəzərdə tutur.

*(d) Faiz dərəcəsinin dəyişməsinin pul vəsaitləri axınına və ədalətli dəyərə təsiri riski*

Cəmiyyət faiz gətirən əhəmiyyətli məbləğdə aktivlərə malik olduğundan, mənfəət və pul vəsaitlərinin əməliyyat axınları, əsasən bazar faiz dərəcələrinin dəyişməsindən asılıdır.

**5.1. Törəmə maliyyə alətləri və hedcinq əməliyyatları**

Törəmə maliyyə alətləri müvafiq sövdələşmələrin (kontaktların) bağlanma tarixinə ilkin balans dəyəri ilə uçota alınır: sonradan ədalətli dəyərə yenidən qiymətləndirmə tələb edilir. Bu qaydada müəyyən edilmiş gəlirlər və zərərlər maliyyə alətlərinin hedcinq aləti kimi təsnifləşdirməsindən asılıdır.

*(a) Ədalətli dəyərin hedcinqləşdirilməsi*

Cəmiyyət tərəfindən pul vəsaitləri axınının hedcinqləşdirilməsi aləti kimi təsnifləşdirilən törəmə alətlərin ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda hedcinqləşmə riskinə aid olan hedcinqləşdirilən maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyərinin dəyişməsi ilə birlikdə əks etdirilir.

*(b) Pul vəsaitləri axınının hedcinqləşdirilməsi*

Cəmiyyət tərəfindən pul vəsaitləri axınının hedcinqləşdirilməsi aləti kimi təsnifləşdirilməsi aləti kimi təsnifləşdirilən törəmə alətlərin ədalətli dəyərinin dəyişməsinin effektiv hissəsi kapitalın tərkibində tanınır (bu dəyişmənin effektiv olmayan hissəsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir).

*(c) Xüsusi hedcinqləşdirmə əməliyyatı uçotu tətbiq edilməyən törəmə alətlər*

Bir sıra maliyyə alətləri xüsusi hedcinqləşdirmə əməliyyatı uçotu qaydalarına aid edilmir Hedcinqləşdirmə əməliyyatları tətbiq edilməyən maliyyə alətlərinin dəyişməsi birbaşa mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**6. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli mühasibat təxminləri və fərziyyələri**

Cəmiyyət növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

**6.1.Müştəri debitor borclarının dəyərsizləməsi üzrə zərərlər**

Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodogiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

**6.2. Binaların yenidən qiymətləndirilməsi**

Hər bir balans tarixində Cəmiyyətin binalarının ədalətli dəyərinin balans hesabatında əks etdirilməsi məqsədilə, rəhbərlik binaların yenidən qiymətləndirilməsi üzrə əsas əldə etmək məqsədilə müstəqil qiymətləndirmə hesabatının tələb olunğunu müəyyən etmək üçün peşəkar mülahizələr irəli sürür. Cəmiyyətin mülkiyyətində olan daşınmaz əmlakların yenidən qiymətləndirilməsinin aparılması peşəkar qiymətləndiricilər tərəfindən 01 İyul 2024-cü il tarixində həyata keçirilmişdir.

**6.3. Vergi qanunvericiliyi**

Azərbaycan Respublikasının vergi, əmək, sosial sığorta, valyuta və gömrük qanunvericiliyi ilə nəzərdə tutulan qaydalar tətbiq edilir.

**7. Yeni və ya yenidən işlənmiş standartların qəbulu və şərhi**

Nəşr edilmiş, lakin Cəmiyyətin maliyyə hesabatlarının verilməsi tarixinə qədər qüvvəyə minməmiş standartlar və onlara aid şərhlər aşağıda açıqlanır. Onlar qüvvəyə mindiyi zaman Cəmiyyət bu standartları qəbul etmək niyyətindədir.

***9 saylı MHBS "Maliyyə alətləri"***

2014-cü ilin iyul ayında MUBSK 9 saylı "Maliyyə alətləri" adlı MHBS-in yekun versiyasını buraxmışdır. Bu versiya maliyyə alətləri layihəsinin bütün mərhələlərini əks etdirir və 39 saylı "Maliyyə alətləri: Tanıma və Ölçmə" adlı MUBS-u və 9 saylı MHBS-in bütün əvvəlki versiyalarını əvəz edir. Standart təsnifləşdirmə və ölçmə, dəyərsizləşmə və hedcinqin uçotu üzrə yeni tələbləri təqdim edir. 9 saylı MHBS 1 yanvar 2018-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlərə tətbiq edilir. Erkən tətbiqetməyə icazə verilir. Retrospektiv qaydada tətbiq edilməsi tələb edilir, lakin müqayisəli məlumatın təqdim edilməsi məcburi deyil. İlk dəfə tətbiq etmənin tarixi 1 fevral 2015-ci il tarixindən əvvəl olduğu halda 9 saylı MHBS-in əvvəlki (2009, 2010 və 2013-cü illərin) versiyalarının erkən tətbiqinə icazə verilir. 9 saylı MHBS-in qəbul edilməsi maliyyə aktivlərinin təsnifatı və ölçülməsinə təsir edəcək, lakin bu Cəmiyyətin maliyyə öhdəliklərinin təsnifatı və ölçülməsinə heç bir təsir göstərməyəcək. Bütün mərhələləri daxil edən yekun standart buraxılanda Cəmiyyət bu düzəlişin təsirini digər mərhələlərin təsiri ilə birlikdə kəmiyyət baxımından müəyyən edəcəkdir.

***15 saylı MHBS "Müştərilərlə müqavilələrdən gəlirlər"***

2014-cü ilin may ayında buraxılmış və 2016-cı ilin aprel ayında düzəlişlər edilmiş 15 saylı MHBS, MHBS-in gəlirlərin tanınması üzrə bütün cari tələblərini əvəz edir. Standart 1 yanvar 2018-ci il tarixində və bu tarixdən sonra başlayan illik dövrlərə retrospektiv qaydada tam və ya düzəlişlər edilmiş şəkildə tətbiq edilməlidir. Cəmiyyət yeni standartı düzəlişlər edilmiş retrospektiv metod işlədərək, 1 yanvar 2018-ci il tarixində ilkin bölüşdürülməmiş mənfəətə məcmu keçidin təsirini tanımaqla qəbul etməyi planlaşdırır. Standart Cəmiyyətdə hal-hazırda tətbiq edilmir.

15 saylı MHBS müştərilərlə müqavilələrdən irəli gələn gəlirləri uçota almaq üçün 5 mərhələli model tətbiq edir. 15 saylı MHBS-yə görə gəlirlər müəssisənin müştəriyə göndərdiyi mallar və ya xidmətlər əvəzində alınması gözlənilən vəsaiti əks etdirən məbləğdə tanınır. Lakin maliyyə alətlərinin və lizinqlərin tərkib hissəsi olan faiz və komissiya gəliri 15 saylı MHBS-nin əhatə dairəsindən kənara çıxır və tətbiq edilən digər standartlarla tənzimlənəcək ( 9 saylı MHBS və 16 saylı MHBS "Lizinqlər"). Nəticədə Cəmiyyətin gəlirinin əksəriyyəti bu standartın qəbulunun təsirinə məruz qalmayacaq. Cəmiyyət hazırda 15 saylı MHBS-nin ilkin tətbiqindən əhəmiyyətli təsir gözləmir.

***16 saylı MHBS "İcarələr"***

16 saylı MHBS 2016-cı ilin yanvar ayında buraxılmış və 17 saylı MUBS "İcarələr", BMHŞK 4 *"Müqavilədə İcarə Əlamətlərinin Mövcudluğunun Müəyyən Edilməsi"* Şərhi, Standartların Şərhi Komitəsinin ("SŞK") 15 saylı *"Əməliyyat icarələri-həvəsləndirmələr"* Standartı və SŞK *"İcarənin hüquqi forması da daxil olmaqla əməliyyatın mahiyyətinin qiymətləndirilməsi"* 27 saylı Standartını əvəz edir. 16 saylı MHBS icarələrin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir və icarəyə götürənlərdən bütün icarələri 17saylı MUBS əsasında maliyyə icarələrinin uçotu ilə eyni qaydada yeganə balans hesabatı modeli əsasında uçota alınmasını tələb edir. Standarta icarəyə götürənlər üçün iki tanıma istisnası daxildir-"azdəyərli" aktivlərin icarəsi və qısamüddətli lizinqlər (icarə müddəti 12 aydan çox olmayan icarələr). İcarə başladığı tarixdə icarəyə götürən icarə ödənişlərinin aparılması öhdəliyini (yəni icarə öhdəliyini) və icarə müddəti ərzində müvafiq aktivi istifadə etmək hüququndan ibarət olan aktivi (yəni istifadə hüququ aktivini) tanıyır.

İcarəyə götürənlər icarə öhdəliyi üzrə faiz xərcini və istifadə hüququ aktivi üzrə köhnəlmə xərcini ayrıca tanımalıdırlar. Bundan əlavə icarəyə götürənlər müəyyən hadisələr baş verəndə (məsələn, icarə müddəti dəyişəndə, bu ödənişləri müəyyən etmək üçün istifadə edilən əmsal və dərəcələrdə dəyişikliklər olduğuna görə gələcək icarə ödənişləri dəyişəndə) icarə öhdəliyini yenidən hesablamalıdırlar. İcarəyə götürən ümumiyyətlə icarə öhdəliyinin yenidən hesablanmasını istifadə hüququ aktivinə düzəliş kimi tanımalıdır.

16 saylı MHBS əsasında icarəyə verənin uçotu hazırda 17 saylı MUBS-a uyğun uçot qaydasından əhəmiyyətli fərqlənmir. İcarəyə verənlər bütün icarələri 17 saylı MUBS-da nəzərdə tutulan həmin təsnifata uyğun olaraq təsnif etməyə və iki icarə növünü əməliyyat və maliyyə icarələrini ayırmağa davam edəcək.

16 saylı MHBS həmçinin icarəyə götürənlərdən və icarəyə verənlərdən 17 saylı MUBS-un tələbləri ilə müqayisədə məlumatların daha geniş açıqlanmasını tələb edir.

16 saylı MHBS 1 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir. Erkən tətbiqetməyə yalnız müəssisə 15 saylı MHBS-ni tətbiq etdikdən sonra yol verilir. İcarəyə götürən standartı ya tam retrospektiv, ya da düzəlişlər edilmiş retrospektiv qaydada tətbiq edə bilər. Standartın keçid müddəaları müəyyən azadetmələrə yol verir. 2018-ci ildə Cəmiyyət 16 saylı MHBS-nin maliyyə hesabatlarına potensial təsirini qiymətləndirməyə davam edəcək.

***2014-2016-cı illərdə (2016-cı ilin dekabr ayında buraxılan) MHBS-yə illik təkmilləşdirmələr***

Bu təkmilləşdirmələrə aşağıdakılar daxildir:

*22 saylı MHBŞK şərhi "Valyuta əməliyyatları və avans ödənişləri"*

Bu Şərh izah edir ki, avans məbləğinə aid olan əlaqəli aktivin, xərcin və ya gəlirin (və ya bunların bir hissəsinin) ilkin tanınmasında istifadə ediləcək spot valyuta məzənnəsinin müəyyənləşdirilməsində əməliyyat tarixi olaraq müəssisə tərəfindən avans ödənişindən irəli gələn qeyri-monetar aktiv və ya qeyri-monetar öhdəlik ilkin olaraq tanındığı tarix hesab edilir. Bu şərh 1 yanvar 2018-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir. Cəmiyyətin cari təcrübəsinin Şərhə uyğun olmasını nəzərə alaraq, Cəmiyyət maliyyə hesabatlarına hər hansı təsirin göstəriləcəyini gözləmir.

*23 saylı MHBŞK şərhi "Mənfəət vergisinin uçotu ilə bağlı qeyri-müəyyənlik"*

Bu şərh mənfəət vergisinin uçotu 12 saylı MUBS-un tətbiq edilməsinə təsir göstərən qeyri-müəyyənliklərlə bağlı olduğu hallarda verginin uçot qaydasını müəyyən edir, 12 saylı MUBS-un əhatə dairəsindən kənar olan vergilərə və ya tutumlara tətbiq edilmir və qeyri-müəyyən vergi uçotu ilə bağlı faiz və cərimələrə aid tələbləri özündə əks etdirmir.

Müəssisə, hər bir qeyri-müəyyən vergi rejimini ayrı-ayrılıqda və ya bir və ya daha çox digər qeyri-müəyyən vergi rejimi ilə birlikdə nəzərdən keçirilməli olub-olmadığını müəyyənləşdirməlidir. Qeyri-müəyyənliyin həlli yollarından qabaqcadan daha çox xəbər verən yanaşma tətbiq edilməlidir. Şərh həmçinin, vergi orqanlarının vergi rejimlərinin araşdırılması ilə əlaqədar müəssisələrin fərziyyələrinə, eləcə də onların fakt və şəraitlərdəki dəyişiklikləri necə qiymətləndirməsinə toxunur.

Bu şərh 1 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir, lakin müəyyən keçid azadetmələri mümkündür. Cəmiyyət bu şərhi qüvvəyə mindiyi tarixdən tətbiq edəcək. Cəmiyyət mürəkkəb vergi mühitində fəaliyyət göstərdiyi üçün Şərhin tətbiqi maliyyə hesabatlarına və tələb olunan açıqlamalara təsir göstərə bilər. Bundan əlavə, Cəmiyyətə Şərhi vaxtında tətbiq etmək üçün zəruri olan məlumatları əldə etmək məqsədilə proses və prosedurları müəyyənləşdirməlidir.

2022-ci ildə MHBS-da əsas dəyişikliklər olmuşdur.Dəyişikliklər 2022-ci il yanvarın 1-dən bir sıra MHBS-lara düzəlişlər qüvvəyə minir.

MHBS 3 Biznes Birləşməsi - Konseptual Çərçivəyə yeni istinad MHBS 3 Müəssisələrin Birləşməsi Müəssisələrin birləşməsi üçün uçot tələblərini dəyişdirmədən Maliyyə Hesabatlarının Konseptual Çərçivəsinə (indi 2001-ci il əvəzinə 2018-ci il istinadı) istinadı yenilədi. Yeni arayış biznes birləşməsində aktiv və ya öhdəliyin nədən ibarət olduğunu müəyyən etməyə imkan verir. Bundan əlavə, MHBS 3 öhdəliklər və şərti öhdəliklər üçün yeni azadlığa malikdir. MHBS 3-ü tətbiq edən müəssisə 2018-ci il üzrə Maliyyə Hesabatlarının Konseptual Çərçivəsinə deyil, BMS 37 və ya BMHŞK 21 Müəyyən növ öhdəliklər üzrə ödənişlərə istinad etməlidir. Bu istisna olmadan, müəssisə müəssisələrin birləşməsi zamanı 37 №-li MUBS-a uyğun tanımayacağı bəzi öhdəlikləri tanımalı olacaq. Həmçinin, alıcıdan 37 №-li MUBS-da müəyyən edilmiş şərti aktivləri alış tarixində tanıması tələb olunmur. MUBS 16 Əsas, tikili və avadanlıqlar – İstifadədən əvvəl gəlir 16 №-li MUBS-a əsasən, aktivin ilkin dəyərinə onun çatdırılması və istifadəyə hazırlanması üçün hər hansı xərclər, o cümlədən aktivin düzgün işləməsinin yoxlanılması xərcləri daxildir.

**16 №-li MUBS-a düzəliş**

Müəssisələrə aktivi istifadəyə hazırlayarkən istehsal edilmiş əşyaların və ya məhsulların satışından əldə edilmiş məbləğlərin torpaq, tikili və avadanlıqların ilkin dəyərindən çıxılmasını qadağan edir. Bunun əvəzinə, müəssisə bu cür satışlardan əldə edilən gəlirləri xərclərlə birlikdə mənfəət və ya zərərdə tanımalıdır. Belə aktivlərin dəyərini ölçmək üçün müəssisə, amortizasiya istisna olmaqla, Ehtiyatlar haqqında 2 №-li MUBS-u tətbiq etməlidir, çünki aktiv hələ təyinatı üzrə istifadəyə hazır deyil.

37 №-li MUBS-a düzəlişlər - Ağır müqavilələr və müqavilənin yerinə yetirilməsinin dəyəri "Qiymətləndirilmiş öhdəliklər, şərti öhdəliklər və şərti aktivlər" adlı 37 №-li MUBS-a əsasən, öhdəliklərin yerinə yetirilməsi ilə bağlı qaçınılmaz məsrəflər gözlənilən iqtisadi səmərələrdən artıq olduqda müqavilə ağır hesab edilir. Dəyişiklik müqavilənin gəlirsizliyini qiymətləndirərkən şirkətin hansı xərcləri daxil etməli olduğunu müəyyən edir. Beləliklə, müqavilənin icrası ilə bağlı birbaşa xərclərə aşağıdakılar daxildir: belə bir müqavilənin icrası üçün əlavə xərclər (məsələn, əmək və materiallar üçün birbaşa xərclər); müqavilələrin icrası ilə birbaşa əlaqəli olan digər xərclərin bölüşdürülməsi (məsələn, müqavilənin yerinə yetirilməsi üçün istifadə olunan əsas, tikili və avadanlıq obyekti üzrə amortizasiya ayırmalarının bölüşdürülməsi). Bəzi müəssisələr əvvəllər yalnız əlavə məsrəfləri icra məsrəflərinə daxil etdiyinə görə, düzəliş ağır müqavilələr üçün böyük məbləğdə ehtiyatın tanınmasına imkan verəcək.

**8. Əmlak, tikili və avadanlıqlar**

| | Binalar | Maşın və avadanlıq | Nəqliyyat vasitələri | Mebel və təsərrüfat inventarları | Cəmi Əmlak, tikili və avadanlıqlar | İnvestisiya mülkiyyəti | Cəmi Əmlak, tikili və avadanlıqlar və investisiya mülkiyyəti |
|---|---|---|---|---|---|---|---|
| 31 dekabr 2023-cü il tarixinə ilkin dəyər | 16,476 | 818,663 | 211,491 | 200,907 | 1,247,537 | 2,950,000 | 4,197,537 |
| Yığılmış köhnəlmə | (7,256) | (545,842) | (21,188) | (126,665) | (700,951) | - | (700,951) |
| **31 dekabr 2023-cü il tarixinə balans dəyəri** | **9,220** | **272,821** | **190,303** | **74,242** | **546,586** | **2,950,000** | **3,496,586** |
| Daxilolmalar | - | 22,507 | - | - | 22,507 | - | 22,507 |
| Yenidən qiymətləndirmə üzrə dəyərsizləşmə | - | - | - | - | - | (390,000) | (390,000) |
| Köhnəlmə xərci | (645) | (44,299) | (25,985) | (7,424) | (78,353) | - | (78,353) |
| Xaricolmalar | - | - | (28,496) | - | (28,496) | - | (28,496) |
| Xaricolmalar üzrə köhnəlmə | - | - | 11,418 | - | 11,418 | - | 11,418 |
| **31 dekabr 2024-cü il tarixinə balans dəyəri** | **8,575** | **251,029** | **147,240** | **66,818** | **473,662** | **2,560,000** | **3,033,662** |
| 31 dekabr 2024-cü il tarixinə ilkin dəyər | 16,476 | 841,170 | 182,995 | 200,907 | 1,241,548 | 2,560,000 | 3,801,548 |
| Yığılmış köhnəlmə | (7,901) | (590,141) | (35,755) | (134,089) | (767,886) | - | (767,886) |
| **31 dekabr 2024-cü il tarixinə balans dəyəri** | **8,575** | **251,029** | **147,240** | **66,818** | **473,662** | **2,560,000** | **3,033,662** |

## 9. Qeyri-maddi aktivlər

| | Proqram təminatı | Lisenziyalar | Cəmi |
|---|---|---|---|
| 31 dekabr 2023-cü il tarixinə ilkin dəyər | 268,558 | 163,562 | 432,120 |
| Yığılmış amortizasiya | (16,873) | (201) | (17,074) |
| **31 dekabr 2023-cü il tarixinə balans dəyəri** | **251,685** | **163,361** | **415,046** |
| Daxilolmalar | - | - | - |
| Amortizasiya xərci | - | - | - |
| Xaricolmalar | - | - | - |
| Xaricolmalar üzrə amortizasiya | - | - | - |
| **31 dekabr 2024-cü il tarixinə balans dəyəri** | **251,685** | **163,361** | **415,046** |
| 31 dekabr 2024-cü il tarixinə ilkin dəyər | 268,558 | 163,562 | 432,120 |
| Yığılmış amortizasiya | (16,873) | (201) | (17,074) |
| **31 dekabr 2024-cü il tarixinə balans dəyəri** | **251,685** | **163,361** | **415,046** |

## 10. Sair uzunmüddətli aktivlər

| | 31 Dekabr 2024-cü il tarixinə | 31 Dekabr 2023-cü il tarixinə |
|---|---|---|
| Sair maliyyə aktivləri | 400,000 | 400,000 |
| **Cəmi sair uzunmüddətli aktivlər** | **400,000** | **400,000** |

Bu maddə üzrə olan aktivlərə "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununa əsasən İcbari Sığorta Bürosuna birdəfəlik olaraq ödənilmiş təminat depozit məbləğləri daxildir.

O cümlədən,

- Daşınmaz əmlakın icbari sığortası üzrə – 100,000 (Bir yüz min) manat;
- Daşınmaz əmlak sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə – 100,000 (Bir yüz min) manat;
- Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə – 200,000 (İki yüz min) manat.

## 11. Uzunmüddətli maliyyə aktivləri

| | 31 Dekabr 2024-cü il tarixinə | 31 Dekabr 2023-cü il tarixinə |
|---|---|---|
| Maliyyə nazirliyi (qiymətli kağızlar) | 7,432,200 | 5,947,600 |
| "Finans Lizinq"ASC-nin istiqrazlar | 625,500 | 625,500 |
| "JETOUR AZƏRBAYCAN" MMC | 100,000 | 100,000 |
| **Cəmi uzunmüddətli maliyyə aktivləri** | **8,157,700** | **6,673,100** |

31 dekabr 2024-cü və 31 dekabr 2023-cü il tarixlərinə olan ödəniş tarixinədək saxlanılan investisiyaların balans dəyəri onların ədalətli dəyərinə təxmini olaraq bərabərdir. 31 dekabr 2024-cü il tarixinə olan ödəniş tarixinədək saxlanılan investisiyaların təxmini ədalətli dəyəri 8,157,700 manat (2023-cü ildə 6,673,100 manat) olmuşdur.

2024-cü il və 2023-cü il ərzində Cəmiyyət ödəniş tarixinədək saxlanılan investisiya qiymətli kağızları üzrə uyğun olaraq 678,183 və 617,849 manat faiz gəlirləri əldə etmişdir.

## 12. Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı

| | 31 Dekabr 2024-cü il tarixinə | 31 Dekabr 2023-cü il tarixinə |
|---|---|---|
| Qeyri-həyat sığortası sahəsi üzrə | 830,129 | 1,031,317 |
| **Cəmi sığorta ehtiyyatlarında təkrarsığortaçıların payı** | **830,129** | **1,031,317** |

## 13. Ehtiyatlar

| | 31 Dekabr 2024-cü il tarixinə | 31 Dekabr 2023-cü il tarixinə |
|---|---|---|
| Yanacaq kartlarındakı qalıqlar | 853 | 723 |
| Sair ehtiyatlar | 8,608 | 8,208 |
| **Cəmi ehtiyatlar** | **9,461** | **8,931** |

## 14. Debitor borcları

| | 31 Dekabr 2024-cü il tarixinə | 31 Dekabr 2023-cü il tarixinə |
|---|---|---|
| Birbaşa sığorta üzrə | 424,401 | 269,151 |
| Təkrarsığortaçı üzrə | 7,515 | 5,104 |
| Büdcə üzrə | 235,308 | 349,998 |
| İşçi heyəti üzrə | 131,447 | 64,882 |
| İddia tələbləri üzrə | 4,099 | 4,309 |
| Sair debitorlar üzrə | 75,922 | 73,035 |
| **Cəmi debitor borcları** | **878,692** | **766,479** |

Cəmiyyətin siyasətinə əsasən müştərilər sığorta haqlarını razılaşdırılmış ödəniş şərtlərinə uyğun olaraq ödəyirlər. Müştəri seqmentindən asılı olaraq ödəniş müddəti hesab-fakturanın təqdim edildiyi tarixdən etibarən 14-30 gün təşkil edir. Lakin bu ödəniş müddətləri müsbət kredit tarixçəsi olan müəyyən müştərilər üçün fərqli ola bilər. Bu baxımdan ödəmə müddəti keçmiş borclar üzrə ehtiyatların yaradılması məqsədə uyğun hesab edilməmişdir.

## 15. Sair qısamüddətli aktivlər

| | 31 Dekabr 2024-cü il tarixinə | 31 Dekabr 2023-cü il tarixinə |
|---|---|---|
| Sair aktivlər | 44,336 | 1,563 |
| Təhtəlhesab şəxslər | - | 78 |
| **Cəmi sair qısamüddətli aktivlər** | **44,336** | **1,641** |

## 16. Pul vəsaitləri və onların ekvivalentləri

| | 31 Dekabr 2024-cü il tarixinə | 31 Dekabr 2023-cü il tarixinə |
|---|---|---|
| Kassada olan nağd pul vəsaitləri | - | - |
| Banklarda olan pul vəsaitləri | 1,946,942 | 3,009,847 |
| **Cəmi** | **1,946,942** | **3,009,847** |
| ***Bank hesabatlarında pul vəsaitlərindən:*** | | |
| - Milli valyutada bank hesabatları | 1,061,226 | 422,102 |
| - Xarici valyutalarda bank hesabları | 1,940 | 4,344 |
| - Depozit hesabları | 863,012 | 2,550,000 |
| - Sair pul vəsaitləri | 20,764 | 33,401 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **1,946,942** | **3,009,847** |

Cəmiyyətin 31 Dekabr 2024-cü və 31 Dekabr 2023-cü il tarixlərinə "Atabank" ASC-də 46,665 AZN pul qalığı olmuşdur. Lakin Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 28 aprel 2020-ci il tarixli qərarı ilə "Atabank" ASC-nin bank fəaliyyətinin aparılması üçün verilmiş lisenziyaları ləğv edilmişdir və bu səbəbdən Cəmiyyət bu vəsaitdən istifadə edə bilmir. Vəsaitin hansı tarixdən etibarən istifadə oluna biləcəyi barədə dəqiq məlumat yoxdur.

## 17. Uzunmüddətli öhdəliklər

| | 31 Dekabr 2024-cü il tarixinə | 31 Dekabr 2023-cü il tarixinə |
|---|---|---|
| Sığorta ehtiyatları - qeyri-həyat sığotası sahəsi üzrə | 6,065,192 | 5,908,750 |
| Kreditor borcu - qarşısıalınma tədbirləri fondu | 362,755 | 340,850 |
| Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər | 134,038 | 84,460 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **6,561,985** | **6,334,060** |

## 18. Kreditor borcları

| | 31 Dekabr 2024-cü il tarixinə | 31 Dekabr 2023-cü il tarixinə |
|---|---|---|
| Sosial sığorta üzrə öhdəliklər | - | 40,627 |
| Sair kreditorlar | 214,568 | 171,438 |
| **Cəmi kreditor borcları** | **214,568** | **212,065** |

## 19. Ödənilmiş nominal (nizamnamə) kapitalı

| | Səhmləri sayı (ədəd) | Səhmin nominal dəyəri (manat) | Adi səhmlər (manat) | İmtiyazlı səhmlər (manat) | Cəmi səhmdar kapitalı (manat) |
|---|---|---|---|---|---|
| **31 dekabr 2023-cü il tarixinə** | **638,000** | **25.0** | **15,950,000** | **-** | **15,950,000** |
| Emissiya edilmiş səhmlər | - | - | - | - | - |
| Emissiya gəliri | - | - | - | - | - |
| **31 dekabr 2024-cü il tarixinə** | **638,000** | **25.0** | **15,950,000** | **-** | **15,950,000** |

31 Dekabr 2024-cü il tarixinə Cəmiyyətin nizamnamə kapitalı hər birinin nominal dəyəri 25,0 manat olmaqla 638,000 ədəd adi, adlı sənədsiz səhmlərdən ibarət olmaqla 15,950,000 manat təşkil etmiş və səhmdar tərəfindən tam ödənilmişdir.

Cəmiyyətin səhmdarının 23 Sentyabr 2014-cü il tarixli 06 saylı qərarına əsasən nizamnamə kapitalının əlavə adi adlı, sənədsiz səhmlər buraxmaq yolu ilə 4,600,000 manat artırılması və 14,600,000 manat müəyyən edilməsi qərara alınmışdır. Səhmdarlar tərəfindən 13 Mart 2015-ci il tarixində 1,900,000 manat, 23 Oktyabr 2015-ci il tarixində 500,000 manat, 05 Sentyabr 2018-ci ildə 2,200,000 manat ödəniş edilmiş və "Atasığorta" ASC-nin faktiki ödənilmiş Nizamnamə Kapitalı 15,950,000 manat təşkil etmişdir. Müvafiq olaraq, "Atasığorta" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalı hər birinin nominal dəyəri 25 (iyirmi beş) manat olmaqla, 638,000 (altı yüz otuz səkkiz min) ədəd adi, adlı, sənədsiz səhmlərdən ibarət olmuşdur.

## 20. Gəlirlər

| | 31 Dekabr 2024-cü il tarixində bitən il üzrə | 31 Dekabr 2023-cü il tarixində bitən il üzrə |
|---|---|---|
| Birbaşa sığorta üzrə sığorta haqları | 10,390,415 | 9,635,793 |
| Sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 25,222 | 11,582 |
| Təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 209,571 | 362,299 |
| Xalis sığorta ehtiyyatlarının dəyişməsi | (357,630) | (1,230,693) |
| İnvestisiya gəlirləri üzrə | 678,183 | 973,748 |
| Subroqasiya gəlirləri | 202,816 | 179,647 |
| Sair gəlirlər | 1,325,742 | 1,115,255 |
| *O cümlədən:* | | |
| *Əsas vəsaitlərin xaricolmasında gəlirlər* | *13,254* | *1,376* |
| *Təkrarsığortaya verilmiş müqavilələr üzrə xitamlar* | *36,730* | *28,821* |
| *Daxil yaşıl kart üzrə gəlir* | *1,245,869* | *1,051,647* |
| *Ləğv prosesində olan bank vəsaitindən gəlir* | *-* | *7,167* |
| *Sair* | *29,889* | *26,244* |
| **Cəmi gəlirlər** | **12,474,319** | **11,047,631** |

## 21. Əsas əməliyyat xərcləri

| | 31 Dekabr 2024-cü il tarixinə | 31 Dekabr 2023-cü il tarixinə |
|---|---|---|
| Sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 4,312,276 | 3,210,549 |
| Qaytarılan sığorta haqları üzrə | 162,364 | 170,059 |
| Təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 13,507 | 2,682,322 |
| Qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 1,920,480 | 79,103 |
| Tənzimləmə xərcləri | 72,095 | 15,499 |
| Sığorta fəaliyyəti üzrə sair xərclər | 2,240 | - |
| Sair xərclər | 67,034 | 49,948 |
| İşlərin aparılması xərcləri | 6,301,725 | 5,787,137 |
| *O cümlədən:* | | |
| *Əmək haqqı və ona bərabər xərclər* | *2,461,879* | *2,175,702* |
| *Sığorta agentləri üzrə xərclər* | *2,118,619* | *1,463,125* |
| *Sığorta fəaliyyəti üzrə sair xərclər* | *399,760* | *1,544,410* |
| *Sosial fondlara ayırmalar* | *817,670* | *358,948* |
| *Reklam xərcləri* | *52,161* | *66,954* |
| *Bank xidməti xərcləri* | *30,582* | *36,908* |
| *Amortizasiya xərcləri* | *78,353* | *-* |
| *Nümayəndəlik xərci* | *51,388* | *26,066* |
| *Peşəkar xidmətlər üzrə xərclər* | *153,111* | *42,960* |
| *Ezamiyyə xərcləri* | *5,227* | *535* |
| *Kommunal xərclər* | *23,396* | *22,289* |
| *Dəftərxana xərcləri* | *19,895* | *15,533* |
| *Təsərrüfat xərcləri* | *810* | *27,637* |
| *Əsas vəsaitlərə servis və təmir xərcləri* | *78,876* | *1,169* |
| *İşçilərin tədris xərcləri* | *9,998* | *4,901* |
| **Cəmi əsas əməliyyat xərcləri** | **12,851,721** | **11,994,617** |

## 22. Məcmu kapitalın və sığorta ehtiyatlarının yerləşdirilməsi, normativlərə əməl olunması vəziyyəti

Sığortaçının investisiya fəaliyyəti 25 dekabr 2007-ci il tarixli "Sığorta fəaliyyəti haqqında" Qanunun VI fəsli ilə tənzimlənir. "Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar" isə Maliyyə Nazirliyinin 14 noyabr 2008-ci il tarixli əmri ilə təsdiq edilmiş və Ədliyyə Nazirliyində 27 noyabr 2008-ci il tarixində dövlət qeydiyyatına alınmışdır (Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2011-ci il 21 yanvar tarixli İ-09 nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 2011-ci il 26 yanvar tarixli 4111 nömrəli şəhadətnamə ilə qeydiyyata alınmış əlavələr və dəyişikliklər nəzərə alınmaqla).

**Sığortaçının öz vəsaiti**

Sığortaçının öz vəsaiti – sığortaçının öhdəliklərindən azad olan, məbləği sığorta nəzarəti orqanı tərəfindən müəyyən edilən qaydalara əsasən hesablanan vəsaitləridir.

31 dekabr 2024-cü il tarixinə "AtaSığorta" ASC-nin öz vəsaiti 6,215,637 manat təşkil etmiş və aşağıdakı qaydada hesablanmışdır.

| | 31 Dekabr 2024-cü il | 31 Dekabr 2023-cü il |
|---|---|---|
| Aktivlərin məcmu dəyəri | 15,794,322 | 15,802,948 |
| Ödəmə vaxtı 90 gündən artıq müddətə gecikdirilməmiş sığorta və təkrarsığorta haqları (dövlət icbari şəxsi sığortaları üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları istisna olmaqla) | 292,127 | 134,477 |
| Sığorta ehtiyatları | 6,065,192 | 5,908,749 |
| Sığorta fəaliyyəti ilə bağlı balans öhdəlikləri (sığorta ehtiyatları çıxılmaqla) | 134,039 | 84,460 |
| Sığorta ehtiyatlarını təmin vəsaitlərin ifadə olunduğu aktivlərin məcmu dəyəri | 6,366,243 | 6,210,727 |
| Sığorta fəaliyyəti ilə bağlı olmayan balans öhdəlikləri | 641,770 | 645,368 |
| Balansdan kənar öhdəliklər (ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi) | - | - |
| "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 63.1.1-63.1.6-cı və 64.1.1-64.1.7-ci maddələrində göstərilmiş aktivlər qrupuna aid olmayan aktivlərin məcmu dəyəri | 2,436,633 | 2,510,217 |
| **Sığortaçının öz vəsaiti** | **6,215,637** | **6,352,176** |

**Sığortaçının öz vəsaitinin investisiyası və məcmu kapitalı**

Məcmu kapital – sığortaçının maliyyə sabitliyinin və ödəmə qabiliyyətinin təmin edilməsi üçün lazım olan vəsaitin mövcud məbləğidir.

"Sığorta fəaliyyəti haqqında" Qanunun 63-cü maddəsinə əsasən sığortaçının öz vəsaiti etibarlılığı, likvidliyi və müxtəlifliyi nəzərə alınmaqla investisiyaya yönəldilir və bu vəsaitin onun məcmu kapitalının hesablanması üçün qəbul edilən hissəsi aktivlərin aşağıdakı qrupları ilə ifadə olunur:

dövlət qiymətli kağızları;

bank hesablarındakı pul vəsaitləri;

daşınmaz əmlak;

qeyri-dövlət qiymətli kağızları;

digər hüquqi şəxslərin nizamnamə kapitalına qoyulmuş vəsaitlər;

öz işçilərinə borc verilmiş pul vəsaitləri.

Sığortaçının aktivlərin yuxarıda göstərilməyən qruplarına investisiyaya yönəldilmiş öz vəsaiti onun məcmu kapitalının hesablanmasında nəzərə alınmır.

31.12.2024-cü il tarixinə Cəmiyyət öz vəsaitlərini dövlət və qeyri-dövlət qiymətli kağızlarına yönəltmiş, banklardakı depozit hesablara yerləşdirmişdir. Diversifikasiya normalarını nəzərə almaqla 2024-cü ilin sonuna Cəmiyyətin məcmu kapitalı 5,086,497.74 manat təşkil etmişdir.

**2024-cü il**

| Aktivlərin adı | Məcmu kapitalı təşkil edən məbləğlər | Faktiki diversifikasiya faizləri | Qaydalar "ın 5.1.1-5.1.6-ci yarımbəndlərində göstərilən diversifikasiya faizləri | Məcmu kapitalı təşkil edən məbləğlərin diversifikasiya normativlərini aşmayan hissələri |
|---|---|---|---|---|
| Dövlət qiymətli kağızları | 4,109,023.2 | 74.22 | 100.0 | 4,109 023.2 |
| Bank hesablarındakı pul vəsaitləri | 295,394.53 | 5.34 | 80.0 | 295,394.53 |
| Daşınmaz əmlak | 1,595,664.15 | 20.17 | 20.0 | 667,080.01 |
| Qeyri-dövlət qiymətli kağızları | 50,000.00 | 0.27 | 5.0 | 15,000.00 |
| Sığorta və təkrarsığorta müqavilələri üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları | - | - | - | - |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | - | - | - | - |
| Həyatın yığım sığortası üzrə sığortalılara və ya sığorta olunanlara borc verilmiş pul məbləğləri | - | - | - | - |
| Digər hüquqi şəxslərin nizamnamə kapitalına qoyulmuş vəsaitlər | - | - | - | - |
| Öz işçilərinə borc verilmiş pul vəsaitləri | - | - | - | - |
| Digər aktivlər | | | | |
| **CƏMİ** | **6,050,081.88** | | | **5,086,497.74** |

**2023-cü il**

| Aktivlərin adı | Məcmu kapitalı təşkil edən məbləğlər | Faktiki diversifikasiya faizləri | Qaydalar "ın 5.1.1-5.1.6-ci yarımbəndlərində göstərilən diversifikasiya faizləri | Məcmu kapitalı təşkil edən məbləğlərin diversifikasiya normativlərini aşmayan hissələri |
|---|---|---|---|---|
| Dövlət qiymətli kağızları | 3,082,464.53 | 52.33 | 100.0 | 3,082,464.53 |
| Bank hesablarındakı pul vəsaitləri | 1,540,723.10 | 23.44 | 80.0 | 1,380,450.34 |
| Daşınmaz əmlak | 1,993,215.80 | 23.69 | 20.0 | 754,598.95 |
| Qeyri-dövlət qiymətli kağızları | - | - | 15.0 | - |
| Sığorta və təkrarsığorta müqavilələri üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları | - | - | - | - |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | - | - | - | - |
| Həyatın yığım sığortası üzrə sığortalılara və ya sığorta olunanlara borc verilmiş pul məbləğləri | - | - | - | - |
| Digər hüquqi şəxslərin nizamnamə kapitalına qoyulmuş vəsaitlər | - | - | 10.0 | - |
| Öz işçilərinə borc verilmiş pul vəsaitləri | 64,881.87 | 0.9 | 5.0 | 32,440.94 |
| Digər aktivlər | | | | |
| **CƏMİ** | **6,681,285.30** | | | **5,249,954.76** |

**Sığorta ehtiyatlarının investisiyası**

"Sığorta fəaliyyəti haqqında" Qanunun 64-cü maddəsinə əsasən sığorta ehtiyatlarını təmin edən pul vəsaitləri etibarlılığı, mənfəətliliyi, likvidliyi və müxtəlifliyi nəzərə alınmaqla investisiyaya yönəldilir və aktivlərin aşağıdakı qrupları ilə ifadə olunur:

dövlət qiymətli kağızları;

bank hesablarındakı pul vəsaitləri;

daşınmaz əmlak; qeyri-dövlət qiymətli kağızları;

sığorta və təkrarsığorta müqavilələri üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları;

sığorta ehtiyatlarında təkrarsığortaçıların payı;

həyatın yığım sığortası üzrə sığortalılara və ya sığorta olunanlara borc verilmiş pul vəsaitləri.

Sığorta ehtiyatlarını təmin edən pul vəsaitləri aktivlərin yuxarıda göstərilməyən qruplarına investisiyaya yönəldilə bilməz. 31 dekabr 2024-cü il tarixinə sığorta ehtiyatlarını təmin edən vəsaitlərin ifadə olunduğu aktivlərin balans dəyəri 641,770 manat təşkil etmişdir. 2024-cü ilin sonuna sığorta ehtiyatlarını təmin edən vəsaitlərin diversifikasiya normalarını aşmayan hissəsi 6,065,192.28 manata bərabər olmuşdur.

**2024-cü il**

| Aktivlərin adı | Sığorta ehtiyatlarını təmin edən vasaitlərin ifadə olunduğu aktivlərin balans dəyəri | Sığorta ehtiyatlarını təmin edən vasaitlərin məcmu məbləğini təşkil edən məbləğlər | "Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar"ın 3.1.1-3.1.7-ci yarımbəndlərində göstərilən müvafiq sığorta ehtiyatları | Faktiki diversifikasiya faizləri | "Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar"ın 3.1.1-3.1.7-ci yarımbəndlərinə əsasən diversifikasiya faizləri | Sığorta ehtiyatlarını təmin edən vasaitlərin məcmu məbləğini təşkil edən məbləğlərin diversifikasiya normativlərini aşmayan hissəsi |
|---|---|---|---|---|---|---|
| Dövlət qiymətli kağızları | 3,323,176.8 | 3,323,176.8 | 6,065,192.28 | 54.79 | 100.0 | 3,323,176.8 |
| Bank hesablarındakı pul vəsaitləri | 939,756.2 | 939,756.20 | 6,065,192.28 | 15.26 | 80.0 | 936,968.84 |
| Daşınmaz əmlak | 964,335.85 | 675,035.1 | 6,065,192.28 | 11.13 | 20.0 | 675,035.1 |
| Qeyri-dövlət qiymətli kağızları, o cümlədən emissiyalar üzrə: | 50,000 | - | 6,065,192.28 | 0.25 | 5 | 15,000 |
| Sığorta və təkrarsığorta müqavilələri üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları | 424,400.75 | | | | | |
| Ödəmə vaxtı 30 gün müddətinə qədər gecikdirilməmiş sığorta və təkrarsığorta haqları | 276,797.68 | 276,797.68 | 6,065,192.28 | 4.56 | 30.0 | 276,797.68 |
| Ödəmə vaxtı 31-45 gün müddətinə gecikdirilmiş sığorta və təkrarsığorta haqları | 10,105.7 | 8,084.56 | 6,065,192.28 | 0.13 | 10 | 8,084.56 |
| Ödəmə vaxtı 45 gündən artıq müddətinə gecikdirilmiş sığorta və təkrarsığorta haqları | 137,497.37 | | | | | |
| Dövlət icbari şəxsi sığortaları üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları | - | - | 6,065,192.28 | - | 100.0 | - |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı,o cümlədən | 830,129.31 | 830,129.31 | | | | 830,129.31 |
| Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatında təkrarsığortaçıların payı | 3,376.98 | 3,376.98 | 3,376.98 | 100.00 | 100.0 | 3,376.98 |
| Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı istisna olmaqla digər ehtiyatlarda təkrarsığortaçıların payı | 826,752.33 | 826,752.33 | 5,472,874.68 | 15.11 | 75.0 | 826,752.33 |
| Həyatın yığım sığortası üzrə sığortalılara və ya sığorta olunanlara borc verilmiş pul məbləğləri | - | - | 6,065,192.28 | - | 50.0 | - |
| Digər hüquqi şəxslərin nizamnamə kapitalına qoyulmuş vəsaitlər | | | | | | |
| Öz işçilərinə borc verilmiş pul vəsaitləri | | | | | | |
| Digər aktivlər | | | | | | |
| **CƏMİ** | **6,531,798.91** | | | | | **6,065,192.28** |

**2023-cü il**

| Aktivlərin adı | Sığorta ehtiyatlarını təmin edən vəsaitlərin ifadə olunduğu aktivlərin balans dəyəri | Sığorta ehtiyatlarını təmin edən vəsaitlərin məcmu məbləğini təşkil edən məbləğlər | "Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar"ın 3.1.1-3.1.7-ci yarımbəndlərində göstərilən müvafiq sığorta ehtiyatları | Faktiki diversifikasiya faizləri | "Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar"ın 3.1.1-3.1.7-ci yarımbəndlərinə əsasən diversifikasiya faizləri | Sığorta ehtiyatlarını təmin edən vəsaitlərin məcmu məbləğini təşkil edən məbləğlərin diversifikasiya normativlərini aşmayan hissəsi |
|---|---|---|---|---|---|---|
| Dövlət qiymətli kağızları | 2,865,135.47 | 2,865,135.47 | 5,908,749.23 | 48.49 | 100.0 | 2,865,135.47 |
| Bank hesablarındakı pul vəsaitləri | 1,389,057.72 | 1,389,057.72 | 5,908,749.23 | 21.06 | 80.0 | 1,244,561.85 |
| Daşınmaz əmlak | 956,784.20 | 669,748.94 | 5,908,749.23 | 11.33 | 20.0 | 669,748.94 |
| Qeyri-dövlət qiymətli kağızları, o cümlədən emissiyalar üzrə: | - | - | 5,908,749.23 | - | 15.0 | - |
| Sığorta və təkrarsığorta müqavilələri üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları | 269,151.11 | - | - | - | - | - |
| Ödəmə vaxtı 30 gün müddətinə qədər müddətə gecikdirilmiş sığorta və təkrarsığorta haqları | 94,868.08 | 94,868.08 | 5,908,749.23 | 1.61 | 30.0 | 94,868.08 |
| Ödəmə vaxtı 31-45 gün müddətində gecikdirilmiş sığorta və təkrarsığorta haqları | 3,897.67 | 3,897.69 | 5,908,749.23 | 0.05 | 10 | 3 118.14 |
| Ödəmə vaxtı 45 gündən artıq müddətə gecikdirilmiş sığorta və təkrarsığorta haqları | 170 385.36 | - | - | - | - | - |
| Dövlət icbari şəxsi sığortaları üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları | - | - | - | - | - | - |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı,o cümlədən | 1,031,316.75 | - | - | - | - | 1,031,316.75 |
| Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatında təkrarsığortaçıların payı | 2,028.97 | 2,028.97 | 2,028.97 | 100.00 | 100.0 | 2,028.97 |
| Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı istisna olmaqla digər ehtiyatlarda təkrarsığortaçıların payı | 1,029,287.78 | 1,029,287.78 | 5,360,585.18 | 19.20 | 75.0 | 1,029,287.78 |
| Həyatın yığım sığortası üzrə sığortalılara və ya sığorta olunanlara borc verilmiş pul məbləğləri | - | - | 5,908,749.23 | - | 50.0 | - |
| Digər hüquqi şəxslərin nizamnamə kapitalına qoyulmuş vəsaitlər | - | - | - | - | - | - |
| Öz işçilərinə borc verilmiş pul vəsaitləri | - | - | - | - | - | - |
| Digər aktivlər | - | - | - | - | - | - |
| **CƏMİ** | **6,511,445.25** | | | | | **5,908,749.23** |

**Sığortaçının tələb olunan kapitalı**

Tələb olunan kapital – sığortaçının maliyyə öhdəliklərinin tam həcmdə yerinə yetirilməsi üçün tələb olunan vəsaiti ifadə edən məbləğdir.

Sığortaçının tələb olunan kapitalının minimum məbləği və müəyyənləşdirilməsi qaydaları sığorta nəzarəti orqanı tərəfindən müəyyən edilir. 01 yanvar 2025-ci il tarixinə sığortaçılar üçün tələb olunan kapitalın minimum məbləği 5,000,000 manat müəyyən edilmişdir.

"Sığorta fəaliyyəti haqqında" Qanunun 79-cu maddəsinin tələblərinə əsasən sığortaçının məcmu kapitalının məbləği onun tələb olunan kapitalının məbləğindən az ola bilməz. 31.12.2024-cü il tarixinə "AtaSığorta" ASC-nin məcmu kapitalının həcmi 5,000,000 manat təşkil etmişdir.

**23. Zərərlilik dərəcəsinin müəyyən edilməsi**

Zərərlilik dərəcəsi "Həyat sığortası və qeyri-həyat sığortası üzrə sığorta ehtiyatlarının formalaşdırılması Qaydaları"na əsasən müəyyən edilir.

Zərərlilik dərəcəsi sığorta fəaliyyətinin ümumilikdə və ayrı-ayrı sığorta sinifləri üzrə səmərəliliyini, habelə sığortaçının maliyyə vəziyyətini xarakterizə edir. Zərərlilik dərəcəsi zərər əmsalı ilə xərc əmsalının cəminə bərabərdir.

**Zərər əmsalı**

Zərər əmsalı təkrarsığortaçıların payı çıxılmamaqla və çıxılmaqla hesablanır.

Təkrarsığortaçıların payı çıxılmamaqla zərər əmsalı hər bir sığorta sinifi və ya bütün sığorta portfeli üzrə məcmu zərərlərin qazanılmış məcmu sığorta haqlarına nisbətinə bərabərdir.

Təkrarsığortaçıların payı çıxılmaqla zərər əmsalı hər bir sığorta sinifi və ya bütün sığorta portfeli üzrə təkrarsığortaçıların payı çıxılmaqla məcmu zərərlərin qazanılmış xalis sığorta haqlarına nisbətinə bərabərdir.

2024-cü ilin nəticələrinə əsasən Cəmiyyətdə qeyri-həyat sığortası sinifləri üzrə zərər əmsalı aşağıdakı kimi olmuşdur:

| № | Sığortanın sinfi | 2024-cü il üzrə | | 2023-cü il üzrə | |
|---|---|---|---|---|---|
| | | Təkrarsığortaçıların payı çıxılmamaqla zərər əmsalı, % | Təkrarsığortaçıların payı çıxılmaqla zərər əmsalı, % | Təkrarsığortaçıların payı çıxılmamaqla zərər əmsalı, % | Təkrarsığortaçıların payı çıxılmaqla zərər əmsalı, % |
| 1 | fərdi qəza sığortası | 4.13 | 4.13 | 4.14 | 4.14 |
| 2 | tibbi sığorta | 68.14 | 68.14 | 73.16 | 73.16 |
| 3 | əmlakın yanğından və digər risklərdən sığortası | 4.64 | 2.99 | 3.87 | 3.06 |
| 4 | avtonəqliyyat vasitələrinin sığortası | 31.4 | 32.31 | 27.31 | 28.72 |
| 5 | yüklərin (nəqliyyat) sığortası | 5.47 | 3.02 | 6.87 | 4.66 |
| 6 | avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 6.53 | 6.53 | 6.12 | 6.20 |
| 7 | işəgötürənin məsuliyyət sığortası | 4.67 | 3.51 | 5.35 | 4.85 |
| 8 | ümumi mülki məsuliyyətin sığortası | 5.96 | 5.06 | 2.47 | 3.20 |
| 9 | auditorların peşə məsuliyyətinin icbari sığortası | 5.96 | 5.96 | 4.55 | 4.55 |
| 10 | daşınmaz əmlakın icbari sığortası | 6.92 | 6.23 | 6.65 | 5.64 |
| 11 | daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 6.79 | 6.91 | 7.58 | 7.49 |
| 12 | avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 49.37 | 52.33 | 44.60 | 60.86 |
| 13 | səfər sığortası | 7.38 | 2.79 | 11.27 | 7.06 |

**Xərc əmsalı**

Xərc əmsalı bütün sığorta portfeli üzrə xərclərin qazanılmış məcmu sığorta haqlarına nisbətinə bərabərdir. 2024-cü il üzrə bütün sığorta portfeli üzrə zərər əmsalı təkrarsığortaçıların payı çıxılmamaqla 107.69%, çıxılmaqla 110.50%, xərc əmsalı isə 65.04%, təşkil etmişdir:

| | 31.12.2024-cü il tarixə | 31.12.2023-cü il tarixə |
|---|---|---|
| Xərc əmsalı, % | 65.04 | 70.84 |
| Təkrarsığortaçıların payı çıxılmamaqla zərərlilik dərəcəsi, % | 107.69 | 109.84 |
| Təkrarsığortaçıların payı çıxılmaqla zərərlilik dərəcəsi, % | 110.50 | 120.60 |

**Zərərlilik dərəcəsi**

Zərərlilik dərəcəsi təkrarsığortaçıların payı çıxılmamaqla və çıxılmaqla hesablanır.

Zərərlilik dərəcəsi təkrarsığortaçıların payı çıxılmamaqla və çıxılmamaqla hesablanan zərər əmsalı ilə xərc əmsalının cəminə bərabərdir.

Bəzi sığorta sinifləri üzrə təkrarsığortaçıların payı çıxılmaqla hesablanan zərərlilik dərəcəsi 100%-dən artıq olmuşdur.

## 24. Mənfəət vergisi xərci

| | 31 Dekabr 2024-cü il tarixinə | 31 Dekabr 2023-cü il tarixinə |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | - | - |
| Təxirə salınmış vergi xərci | - | - |
| **Cəmi mənfəət vergisi xərci** | **-** | **-** |

2024-cü il üzrə hesabat ilini Cəmiyyət 377,402 manat zərərlə başa vurmuşdur.

MHBS və Azərbaycan Respublikasının vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması çərçivəsində aktiv və passivlərin balans dəyəri arasında müvəqqəti zaman fərqləri əmələ gəlir.

Bu müvəqqəti zaman fərqləri üzrə dövriyyələrin vergi təsiri cari ilin sonuna mövcud olmuş mənfəət vergisi dərəcəsində 20 % (2023-cü il – 20 %) qeydə alınır. Hazırki maliyyə hesabatlarında təxirə salınmış vergi aktivləri və ya öhdəlikləri hesablanmamış və nəzərə alınmamışdır.

**Səhm üzrə mənfəət və ya zərər**

Cəmiyyətin səhm üzrə mənfəəti potensial olaraq azaldılmış adi səhmlərə malik deyildir. Buna görə, səhm üzrə azaldılmış mənfəət səhm üzrə əsas mənfəətə bərabərdir. Lakin 2024-cü ili Cəmiyyət zərərlə başa vurmuş, dividendlər elan edilməmişdir.

| | 2024-cü il üzrə | 2023-cü il üzrə |
|---|---|---|
| İl üzrə xalis zərər | (377,402) | (946,986) |
| Dövriyyədə olan adi səhmlərin orta çəkili sayı (ədəd) | 638,000 | 638,000 |
| **Adi səhm üzrə əsas zərər (səhm üzrə manatla)** | **(0.592)** | **(1.484)** |

## 25. Əlaqəli tərəflərlə əməliyyatlar

24 saylı "Əlaqəli tərəflər haqqında açıqlamalar" adlı BMHS-nın tələblərinə əsasən, əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Cəmiyyətin birbaşa, dolayısı yolla və ya hər hansı bir üçüncü tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana şirkətlər, törəmə müəssisələr, eyni səviyyədə olan törəmə müəssisələr aiddir); Cəmiyyətin fəaliyyətində marağı və bu fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərmək imkanı olan şəxslər; və Cəmiyyətin fəaliyyətinə ortaq nəzarət həyata keçirən şəxslər;

(b) Asılı müəssisələr – Cəmiyyət tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərilə biləcək, lakin törəmə və ya birgə müəssisə olmayan tərəflər;

(c) Cəmiyyətin tərəf kimi çıxış etdiyi birgə müəssisələr;

(d) Cəmiyyətin və ya ana şirkətin idarə heyətinin üzvləri;

(e) (a) və ya (d) bəndlərində göstərilən şəxslərin yaxın ailə üzvləri;

(d) və ya (e) bəndlərində göstərilən şəxslər tərəfindən birbaşa və ya dolayı yolla səsvermə hüquqlarının əhəmiyyətli hissəsini əlində cəmləşdirən nəzarətdə olan tərəflər, müəssisələr və birgə müəssisələr aiddir.
Ehtimal edilən hər hansı bir əlaqəli tərəfi nəzərə alarkən, əlaqənin təkcə hüquqi formasına deyil, həmçinin iqtisadi mahiyyətinə diqqət yetirilir. Cəmiyyətin 31 dekabr 2024-cü il tarixində bitən il üzrə əlaqəli tərəflərə aid aşağıdakı əməliyyatları olmuşdur:

| | 2024-cü il üzrə | |
|---|---|---|
| | **Əlaqəli tərəflərlə olan əməliyyatlar** | **Maliyyə hesabatlarında bu band üzrə cəmi məbləğ** |
| **Əsas əməliyyat xərcləri** | | **(12,851,721)** |
| *- Rəhbərliyin əmək haqqı xərcləri* | *(183,761)* | |

## 26. Risklərin idarə edilməsi

Cəmiyyət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

### Kredit riski

Cəmiyyətin kredit riski konsentrasiyası üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclarından ibarətdir.

### Bazar riski

Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərlərilə dəyişə bilər.

**Faiz dərəcəsi riski**

Cəmiyyəti bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

**Hesabat tarixindən sonra baş vermiş hadisələr**

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edə biləcək hadisələr baş verməmişdir.